Vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Validə Kazımovanın qeydə alınmış namizəd Cəmil Həsənlinin 01 oktyabr 2013-cü il tarixli 12 saylı müraciəti üzrə

## RƏYİ

Bakı şəhəri 02 oktyabr 2013-cü il

Mən, ekspert qrupunun üzvü Validə Kazımova 2013-cü il oktyabrın 9-na təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərində qeydə alınmış namizəd Cəmil Həsənlinin 01 oktyabr 2013-cü il tarixli 12 saylı müraciətini araşdıraraq müəyyən etdim:

2013-cü il oktyabrın 9-na təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərində qeydə alınmış namizəd Cəmil Həsənli 2013-cü il oktyabrın 1-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına yazılı müraciət edərək, 28 sentyabr 2013-cü ildə Azərbaycan Respublikasının İctimai Televiziya və Radio Yayımları Şirkəti tərəfindən Azərbaycan Respublikası Prezidentinin seçkilərində namizədlərin təşviqat aparmaları üçün ödənişsiz əsaslarla təşkil edilmiş "Xalq seçir" adlı proqramında "Dəyirmi masa"da müzakirələr aparılarkən prezidentliyə qeydə alınmış digər namizəd Hafiz Hacıyev tərəfindən növbəti dəfə onun və "Demokratik Qüvvələrin Milli Şurası"nın ayrı-ayrı üzvlərinin şərəf və ləyaqətinin təhqir edildiyini, öldürməklə hədələdiyini, geniş tamaşaçı auditoriyasına hörmətsizlik göstərildiyini, lakin verilişin aparıcısı tərəfindən onun çıxışının dayandırılmadığını göstərərək, qeydə alınmış namizəd Hafiz Hacıyevin qeydiyyatının ləğv edilməsi və müvafiq tədbirlərin görülməsi üçün hüquq mühafizə orqanlarına müraciət edilməsini, həmçinin Azərbaycan Respublikası İctimai Televiziya və Radio Yayımları Şirkətinin "Xalq seçir" adlı proqramının aparıcısı barədə müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci və 112-1-ci maddələrinin və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydalara haqqında Təlimat"ın tələblərinə uyğun tərtib edildiyindən Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası nəzdində yaradılmış ekspert qrupunun üzvü kimi tərəfimdən araşdırmaya qəbul edilmişdir.

Araşdırma prosesində ərizəçiylə əlaqə yaradılmış, araşdırmada iştirak etmək hüququ barədə ona məlumat verilmiş, araşdırmaya yardım etməyə dəvət olunmuşdur.

Araşdırma aparılarkən toplanmış sübutların mötəbərliyinə və mümkünlüyünə xüsusi əhəmiyyət verilmiş, həmin sübutların mənbələrinin və əldəetmə üsullarının qanunvericiliyin tələblərinə tam cavab verməsi üçün müvafiq tədbirlər görülmüşdür.

Vətəndaşların seçki hüquqlarının daha səmərəli təmini prinsipi əsas götürülərək, ərizəçinin müraciəti tərəfimdən qanunla müəyyən olunmuş qaydada araşdırılmışdır.

Müraciətin araşdırılması zamanı Azərbaycan Respublikasının İctimai Televiziya və Radio Yayımları Şirkəti tərəfindən Azərbaycan Respublikası Prezidentinin seçkilərində namizədlərin təşviqat aparmaları üçün 28 sentyabr 2013-cü ildə ödənişsiz əsaslarla təşkil edilmiş "Xalq seçir" adlı proqramın videoyazısına baxış keçirilmiş, orada ərizəçiyə qarşı hər hansı namizəd, o cümlədən Hafiz Hacıyev tərəfindən ölümlə hədələmək xüsusatına rast gəlinməmişdir. Ölümlə hədələmə halının olmaması araşdırma zamanı həm ərizəçinin səlahiyyətli nümayəndəsi, həm qeydə alınmış prezidentliyə namizəd H.Hacıyev, həm də aparıcı-jurnalist Fizuli İsmayılov tərəfindən təsdiq edilmişdir. Ona görə də müraciət bu hissədə əsassızdır.

Məlum teledebat zamanı prezidentliyə qeydə alınmış namizəd Cəmil Həsənlinin və "Demokratik Qüvvələrin Milli Şurası"nın ayrı-ayrı üzvlərinin şərəf və ləyaqətinin digər namizəd Hafiz Hacıyev tərəfindən təhqir edilməsi tələbinə gəldikdə isə qeyd edilməlidir ki, Hafiz Hacıyevin, həmçinin ondan heç də az olmayan həddə, ərizəçi tərəfindən müxtəlif şəxslərin və qrupların ünvanına şərəf və ləyaqətin alçaldılması və yalnız "Dəyirmi masa" iştirakçılarının hüquqlarının deyil, eyni zamanda seçicilərin qanunla qorunan məlumat əldə etmək hüquqlarının pozulması kimi qiymətləndirilə bilən ifadələr söylənilmişdir.

Ona görə də, ekspert qrupunun üzvü kimi hesab edirəm ki, vətəndaşların şərəf və ləyaqətlərinin müdafiəsinin Azərbaycan Respublikası mülki və cinayət - prosessual qanunvericiliklərində nəzərdə tutulmuş qaydada həyata keçirilməsi tələbi ərizəçinin diqqətinə çatdırılmalıdır.

Belə ki, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 23.1-ci maddəsinə əsasən,fiziki şəxs onun şərəfini, ləyaqətini və ya işgüzar nüfuzunu ləkələyən, şəxsi və ailə həyatının sirrini və ya şəxsi və ailə toxunulmazlığını pozan məlumatların məhkəmə qaydasında təkzib olunmasını tələb edə bilər, bu şərtlə ki, həmin məlumatları yaymış şəxs onların həqiqətə uyğun olduğunu sübuta yetirməsin. Faktik məlumatlar natamam dərc edildikdə də, əgər bununla şəxsin şərəfinə, ləyaqətinə və ya işgüzar nüfuzuna toxunulursa, eyni qayda tətbiq edilir.

Eyni zamanda Azərbaycan Respublikası Cinayət - Prosessual Məcəlləsinin 37.2-ci maddəsinə əsasən xüsusi ittiham qaydasında cinayət təqibi yalnız zərər çəkmiş şəxsin şikayəti əsasında Azərbaycan Respublikası

Cinayət Məcəlləsinin 147, 148, 165.1 və 166.1-ci maddələrində göstərilən cinayətlər üzrə həyata keçirilir.

Həmçinin qeyd olunmalıdır ki, Seçki Məcəlləsinin 113.2-ci maddəsində nəzərdə tutulan hallar olduqda , namizədin qeydiyyatının ləğv edilməsi üçün əsaslar yaranır.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 113.2-ci maddəsinə əsasən namizədin, referendum üzrə təşviqat qrupunun qeydiyyatı Azərbaycan Respublikası Seçki Məcəlləsinin 113.2.1-13-cü maddəsində göstərilən hallarda qanunvericiliklə müəyyən edilmiş qaydada məhkəmənin qanuni qüvvəyə minmiş cinayət işi üzrə hökmün və ya inzibati xəta üzrə qərarı əsasında ləğv olunur.

Göründüyü kimi, bu hala dair məhkəmənin qanuni qüvvəyə minmiş hökmü və ya inzibati xəta üzrə qərarı mövcud deyildir.

Bundan başqa, ekspert qrupunun üzvü kimi bir daha qeyd etməyi zəruri hesab edirəm ki, 2013-cü il oktyabrın 9-na təyin edilmiş Azərbaycan Respublikası Prezidenti seçkilərində iştirak edən təşviqat aparmaq hüququna malik olan subyektlər, xüsusilə də “Dəyirmi masa” iştirakçıları onlara yaradılmış imkanlardan və ayrılmış ödənişsiz efir vaxtından istifadə edərkən qanunvericiliyin tələblərinə ciddi əməl etməli, ayrılan efir vaxtından yalnız təşviqat məqsədləri üçün istifadə etməli, qanunla qorunan dəyərlərə toxunmamalı, Azərbaycan Respublikası Prezidentinin Konstitusiya ilə qorunan hüquq və mənafelərinə hörmətlə yanaşmalı, seçkiqabağı təşviqat aparılarkən kütləvi informasiya vasitələrindən sosial, irqi, milli, dini nifrət və düşmənçilik yaradan təşviqat formasında sui-istifadə etməməli, hədə-qorxu və böhtan xarakterli və ya zorakılığa çağıran çıxışlar etməməli və bu cür materiallar yaymamalı, mətbuat azadlığına hörmət bəsləməli, öz peşə fəaliyyəti ilə məşğul olan kütləvi informasiya vasitələri nümayəndələrinin işinə mane olmamalı, namizədlərin, siyasi partiyaların seçki kampaniyalarına müdaxilə etməməli və onu pozmamalı, kütləvi informasiya vasitələrində yayılan təşviqat materiallarında və çıxışlarda hakimiyyətin zorla ələ keçirilməsinə, konstitusiya quruluşunun zorla dəyişdirilməsinə və dövlətin ərazi bütövlüyünün pozulmasına çağırışlar, vətəndaşların şərəf və ləyaqətini təhqir edən mülahizələrə yol verməməli və s. bu kimi qanuni tələblərə ciddi riayət etməlidirlər.

Ərizəçi tərəfindən “Dəyirmi masa” aparıcısının qanunsuz fəaliyyətsizlikdə ittiham edilməsinə gəldikdə isə qeyd edilməlidir ki, qeydə alınmış namizədlər təşviqat aparmaları üçün onlara ayrılmış efir vaxtının tamhüquqlu sahibləridirlər və onlar həmin vaxtdan seçkiqabağı məqsədlər üçün öz mülahizələrinə uyğun istifadə etməlidirlər. Təcrübədə aparıcının çıxış

edən namizədin, o cümlədən ərizəçinin iştirakı ilə göstərilən tələblərin pozulmasının qarşısının alınması məqsədilə müdaxilə cəhdi İTV-nin 6 dəqiqə 12 saniyə efir vaxtının lüzumsuz itkisinə səbəb olduğundan, həmçinin seçki qanunvericiliyində təşkil edilmiş “Dəyirmi masa”larda müzakirələr aparılarkən həmin müzakirələrdə aparıcı funksiyasını yerinə yetirən şəxsin üzərinə prezidentliyə namizədlərin seçkiqabağı təşviqatını dayandırmaq öhdəliyi birmənalı olaraq qoyulmadığından həmin şəxsin barəsində hər hansı tədbirin görülməsi mümkünsüzdür.

Yuxarıda göstərilənlərə əsasən müraciət təmin edilməməli, vətəndaşların şərəf və ləyaqətlərinin məhkəmə qaydasında müdafiəsi ilə bağlı qanunvericiliyin tələbi ərizəçinin diqqətinə çatdırılmalı, təşviqat aparmaq hüququna malik olan subyektlər, xüsusilə də “Dəyirmi masa” iştirakçıları tərəfindən seçkiqabağı təşviqat aparılarkən qanunvericiliyin tələblərinə ciddi əməl olunmasının və sui-istifadə hallarına yol verilməməsinin zəruriliyi bir daha qeyd edilməlidir.

Seçki Məcəlləsinin 189.2-ci maddəsinə əsasən teleradio verilişləri təşkilatlarının ayırdıqları pulsuz efir vaxtı qeydə alınmış prezidentliyə namizədlərə müzakirələrin, dəyirmi masaların, digər bu cür təşviqat tədbirlərinin keçirilməsi üçün nəzərdə tutulur. Bu cür tədbirlərin keçirilməsi qaydaları Mərkəzi Seçki Komissiyası tərəfindən müəyyən edilir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 2.6-cı maddəsinə əsasən seçkilərdə iştirak edən subyektlər mətbuat azadlığına hörmət bəsləməli, öz peşə fəaliyyəti ilə məşğul olan kütləvi informasiya vasitələri nümayəndələrinin işinə mane olmamalı, namizədlərin, partiyaların (siyasi partiyalar bloklarının) seçki (referendum) kampaniyalarına müdaxilə etməməli və onu pozmamalı, səlahiyyətli şəxslərə və müşahidəçilərə hörmət bəsləməli və onlarla əməkdaşlıq etməli, seçiciləri qeyri-qanuni hərəkətlər yolu ilə öz tərəfinə çəkməməli, hədə-qorxu və böhtan xarakterli və ya zorakılığa çağıran çıxışlar etməməli və bu cür materiallar yaymamalı, təzyiq göstərməməli və ya bəxşiş təklif etmək yolu ilə və ya digər qanunazidd üsullarla seçiciləri səs verməyə, səsvermədən çəkinməyə sövq etməmək kimi şərtlərə riayət etməlidirlər.

Bundan əlavə, Seçki Məcəlləsinin 88.1-ci maddəsinə əsasən Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə, İnzibati Xətalar Məcəlləsinə və Mülki Məcəlləsinə uyğun olaraq, qeydə alınmış namizədlərin, siyasi partiyaların, siyasi partiya bloklarının, referendum üzrə təşviqat qruplarının seçkiqabağı proqramında (referendumqabağı çağırışlarında), yığıncaqlarda, kütləvi informasiya vasitələrində yayılan təşviqat materiallarında və çıxışlarda hakimiyyətin zorla ələ keçirilməsinə, konstitusiya quruluşunun zorla dəyişdirilməsinə və dövlətin ərazi bütövlüyünün pozulmasına çağırışlar, vətəndaşların şərəf və ləyaqətini təhqir edən

mülahizələr olmamalıdır. Bu qadağa Azərbaycan Respublikası Konstitusiyasının 47-ci maddəsinə uyğun tətbiq edilməlidir.

Həmin Məcəllənin 88.2-ci maddəsinə əsasən Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə uyğun olaraq seçkiqabağı təşviqat aparılarkən kütləvi informasiya vasitələrindən sosial, irqi, milli, dini nifrət və düşmənçilik yaradan təşviqat formasında sui-istifadə qadağandır.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci və "Azərbaycan Respublikası Mərkəsi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən **r ə y ə  g ə l d i m:**

1. 2013-cü il oktyabrın 9-na təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərində qeydə alınmış namizəd Cəmil Həsənlinin 01 oktyabr 2013-cü il tarixli 12 saylı müraciəti təmin edilməsin.

2. Şərəfin, ləyaqətin və işgüzar nüfuzun müdafiəsinin məhkəmə qaydasında həyata keçirilməsinin mümkünlüyü ərizəçinin diqqətinə çatdırılsın.

3. Təşviqat aparmaq hüququna malik olan subyektlər, xüsusilə də "Dəyirmi masa" iştirakçıları tərəfindən seçkiqabağı təşviqat aparılarkən qanunvericiliyin tələblərinə ciddi əməl olunmasının və sui-istifadə hallarına yol verilməməsinin zəruriliyi bir daha qeyd edilsin.

4. Rəy verildikdən sonra növbəti 18 saatdan gec olmayaraq dərc olunsun (internet səhifəsində yerləşdirilsin) və müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü — Validə Kazımova